DÜNYA

Zelenski ilə görüşən Uitkoff Putinlə danışıqlar üçün Peterburqa gedir

Oktyabr 20, 2026



Ukrayna prezidenti Volodimir Zelenski Osloda görüş zamanı ABŞ elçisi Stiv Uitkoffu qucaqlayır. 20 oktyabr 2026

ABŞ prezidentinin xüsusi elçisi **Stiv Uitkoff** oktyabrın 21-də Sankt-Peterburqa gedərək Rusiya prezidenti Vladimir Putinlə görüşəcək.

Bu barədə məlumatı Norveçin baş naziri **Yonas Qar Störe** verib. O, bu açıqlamanı Uitkoff və Ukrayna prezidenti Volodimir Zelenski arasında çərşənbə axşamı Osloda keçirilən danışıqlardan sonra edib.

Görüşə Finlandiya prezidenti **Aleksandr Stubb** da qoşulub. O, mətbuat konfransı zamanı bildirib ki, danışıqlar ərzində **"sülh yolu ilə nizamlanmanın bəzi elementləri tapılıb və onlar sabah Sankt-Peterburqda təqdim olunacaq".**

"The New York Times" qəzetinin məlumatına görə, amerikalı diplomatların Rusiyada uzun müddətdir həbsdə olan ABŞ vətəndaşını azad etdirməyə çalışacaqları gözlənilir. Onlar bununla prezident Putinlə razılığa gəlməyin faydalı olduğunu sübut etməyi hədəfləyirlər. Söhbətin konkret olaraq kimdən getdiyi dəqiqləşdirilmir. "The New York Times" yazır ki, ABŞ Dövlət Departamentinin Rusiyada "qanunsuz saxlanılan" şəxs kimi tanıdığı yeganə amerikalı Stiven Habbarddır. 2024-cü ildə Moskva məhkəməsi onu muzdlu döyüşçü olmaqda təqsirləndirərək 6 il 10 ay müddətinə azadlıqdan məhrum edib. İstintaqın versiyasına görə, Habbard 2014-cü ildən Ukraynada yaşayıb, Rusiyanın hücumundan sonra isə ərazi müdafiə qüvvələrinə qoşulub.

"Axios" müxbiri Barak Ravidin daha əvvəl bildirdiyinə görə, Uitkoff Rusiyaya səfəri zamanı müharibənin dayandırılması ilə bağlı Ukrayna və avropalı tərəfdaşlarla birlikdə hazırlanan təklifləri Putinə təqdim etmək niyyətindədir.

Rusiya xarici işlər naziri **Sergey Lavrov** bildirib ki, Moskva Trampın xüsusi elçilərinin təkliflərini dinləməyə hazırdır, amma heç bir siyasi güzəştə getməyəcək. **"Baxaq görək nə təklif edirlər. Əgər iqtisadi və maliyyə cəhətdən bizə sərf edirsə, niyə də yox? Amma bu, bizim tərəfimizdən heç bir siyasi güzəşt edilmədən reallaşmalıdır. Üstəlik, qlobal arenada bütün işlərimizi "yoluna qoyacaq" hansısa siyasi rəğbət də gözləməməliyik"**, – deyə Lavrov vurğulayıb.

+++

Oslodakı bu danışıqlar ABŞ prezidenti Donald Tramp ilə Zelenski arasındakı gərginlik fonunda baş tutur. **Tramp** Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsinin başa çatdırılması üzrə danışıqlarda Zelenskinin iştirak etməməli olduğuna işarə edib: **"Açığı, düşünürəm ki, artıq Ukrayna adından danışıqları başqa birinin aparmasının vaxtı çatıb".**

Zelenski isə öz növbəsində Tramp administrasiyasının bir sıra addımlarının Rusiya prezidenti Vladimir Putinin maraqlarına xidmət edəcəyini vurğulayıb. Belə ki, son iki həftə ərzində Tramp Rusiyadan dizel yanacağı ixracına qoyulan qadağanı ləğv edib və ötən ay imzaladığı qanunla tətbiq olunmalı sanksiyaların icrasını dayandırıb.



Marko Rubio və Volodimir Zelenski

Zelenski və Rubio 'Starlink' və ballistik raketlərdən müdafiəni müzakirə ediblər

Ukrayna prezidenti **Volodimir Zelenski** ABŞ-nin dövlət katibi **Marko Rubio** ilə hava hücumundan müdafiə və peyk rabitəsi mövzusunda "məzmunlu" danışıqlar apardığını bəyan edib. Zelenski bu barədə oktyabrın 20-də məlumat verib.

O, "X" sosial şəbəkəsindəki hesabında yazıb ki, görüşdə ballistik raket əleyhinə müdafiə sistemləri, Rusiyanın ballistik raket zərbələri barədə öncədən xəbərdarlıq mexanizmləri, eləcə də "Starlink" və "Starshield" peyk xidmətlərinin mövcud vəziyyəti müzakirə olunub. Ukrayna lideri bu xidmətlərin fəaliyyətinin bərpa edilməli olduğunu xüsusilə vurğulayıb.

"Reuters" agentliyi Zelenskinin oktyabrın 20-də Osloya getdiyini bildirir. Ukrayna lideri burada ölkəsindəki müharibə və Avropanın təhlükəsizliyi ilə bağlı danışıqlar aparacaq. Görüşün təşkilatçılarından olan Norveç hökuməti və Finlandiya tərəfi də bu barədə rəsmi məlumat yayıb.

"Prezident Zelenski Ukrayna üçün olduqca kritik bir vaxtda, diplomatik səylər çərçivəsində Norveç və Finlandiyadan bu görüşün təşkil olunmasını xahiş edib", - Norveçin baş naziri **Yonas Qar Störe** bəyanatında bildirib.

Finlandiya prezidenti **Aleksandr Stubb** isə Zelenski və Störe ilə keçiriləcək görüşlərdə şəxsən iştirak edəcəyini vurğulayıb. O, müzakirələrin əsas mövzusunun "Rusiyanın

Ukraynaya qarşı başlatdığı qanunsuz təcavüzkar müharibə və Avropadakı ümumi təhlükəsizlik vəziyyəti" olacağını bəyan edib.

Bununla belə, Norveç və Finlandiya rəsmiləri öz bəyanatlarında ABŞ və ya digər Avropa nümayəndə heyətlərinin bu görüşdə iştirak edib-etməyəcəyi barədə hər hansı detal açıqlamayıb.

Buna da bax:

Rubio: Ukraynanın xəbərdar edilməməsinə səbəb proqram xətasıdır

Tramp: Məqsəd Moskvanı danışıqlar masasında saxlamaqdır

ABŞ senatorları Ukraynaya görə 'Starshield' sisteminin araşdırılmasını tələb ediblər

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur